## İnformasiya təhlükəsizliyinin təminatına diqqət artırılır

Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı yeni dövlət qurumunun yaradılması müzakirə olunur

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) hazırda bununla bağlı təklifləri nəzərdən keçirir. Yeni dövlət qurumunun kibercinayətkarlıqla mübarizə sahəsində ixtisaslaşmış struktur kimi fəaliyyət göstərəcəyi bildirilir. Bu sahədə mübarizə tədbirlərinin həyata keçirilməsi həssas geosiyasi məkanda yerləşən respublikamızda informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişaf tempi ilə şərtlənir.

Mövcud reallıqlar nəzərə alınmaqla son illər respublikada informasiya təhlükəsizliyinin təmini məsələsinə xüsusi diqqət ayrılır. Azərbaycan 2008-ci ildə Avropa Şurasının «Kibernetik cinayətkarlıq haqqında Konvensiya»sını imzalayıb. Bundan başqa, Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamenti İKT təhlükəsizliyi istiqamətdə mübarizə tədbirlər həyata keçirilir. Departament tərəfindən yaradılmış «AzStat.Net» şəbəkəsi dövlət qurumlarının informasiya resurslarının mühafizəsi sahəsində fəaliyyət göstərir.

Ölkə başçısının 19 iyun 2012-ci il tarixli «Azərbaycan Respublikası dövlət orqanlarının internet informasiya ehtiyatlarının və elektron poçt ünvanlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bəzi tədbirlər haqqında» fərmanı da bu sahədə həyata keçirilən təhlükəsizlik tədbirlərinin təkmilləşdirilməsinə xidmət edir. Fərmana əsasən, Nazirlər Kabineti iki ay müddətində dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair tələbləri müəyyən edərək ölkə Prezidentinə məlumat verməlidir. Eyni zamanda, fərmanla Xüsusi Dövlət Mühafizə Xidmətinə dövlət orqanları üçün məlumat və resurs mərkəzində yerləşdirilmiş internet informasiya ehtiyatlarının, elektron poçt ünvanlarının təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılmışdır.

Ekspertlərin fikrincə, ölkənin sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində informasiya təhlükəsizliyi ictimai həyatın aktual məsələlərindən birinə çevrilib. AMEA-nın müxbir üzvü, İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev hesab edir ki, ölkədə İKT bazarının sürətli inkişafı - modern texnologiyaların genişlənməsi, innovativ layihələrin reallaşdırılması adekvat olaraq təhlükəsizlik tədbirlərinə də ehtiyacı artırır. 2012-ci ilin əvvəllərində Azərbaycanın informasiya məkanına xaricdən «haker hücumu» nəticəsində bir sıra dövlət və özəl qurumların internet saytlarının fəaliyyətinin müvəqqəti dayanması faktını xatırladan ekspertin fikrincə, müasir dövrdə heç bir ölkə kibercinayətkarlığın vura biləcəyi ziyandan sığortalanmayıb: «Ölkəmizin ümumi iqtisadi inkişafında informasiya-kommunikasiya texnologiyalarının payı artan xətt üzrə inkişaf edir. İKT davamlı inkişaf siyasətinin prioritet istiqamətləri sırasında yer almaqla yanaşı, sosial-iqtisadi sahəyə də böyük sürətlə nüfuz etməkdədir. 2011-ci ildə bu sektor üzrə əldə olunan gəlirlərin həcmi 2010-cu ilə nisbətən təxminən 12% artmışdır. Bu da ümumdünya orta göstəricisinin gözlənilən rəqəmindən təxminən 2 dəfə çoxdur. 2004-2010-cu illərdə ölkədə İKT-dən əldə olunan gəlirlərin orta illik artım tempi ümumdünya göstəricisini 2,5-3 dəfə qabaqlamış, həmin dövrdə özəl sektorun İKT bazarında payı artaraq 80%-ə çatmışdır. Bu cür uğurlu göstəricilər fonunda, təbii ki, informasiya təhlükəsizliyi məsələlərinə də diqqəti artırmaq tələb olunur».

Professor Rasim Əliquliyevin sözlərinə görə, «Elektron hökumət» proqramının uğurla həyata keçirilməsi, dövlət qurumları tərəfindən vətəndaşlara göstərilən elektron xidmətlərin çeşidinin genişləndirilməsi, ödəniş sistemlərinin inkişafı, nağdsız dövriyyənin həcminin artması İKT resurslarının təhlükəsizliyi ilə bağlı kompleks tədbirlərin görülməsini zəruri edir: «İqtisadi inkişafın tempinə uyğun olaraq bu gün ölkədə elektron ticarət genişlənir, nağdsız ödənişlərin həcmi artır. Yeni ödəniş sistemlərinin yaradılması və fəaliyyəti modern sahibkarlıq fəaliyyəti kimi meydana çıxır. Bir sıra dövlət qurumlarının, ilk növbədə, Vergilər Nazirliyinin səmərəli fəaliyyəti nəticəsində ticarət, iaşə və xidmət sahələrində POS-terminallar və digər nağdsız ödəniş köşkləri yerləşdirilir. İndiki mərhələdə vacib məsələlərdən biri də vətəndaşları bu təhlükəsizlik sistemlərinin etibarlılığına inandırmaqdır».

İnformasiya təhlükəsizliyi sahəsində yeni dövlət qurumunun yaradılmasını zəruri hesab edən ekspert bu qənaətdədir ki, Azərbaycandakı mövcud milli ödəniş sistemləri təhlükəsizlik nöqteyi-nəzərdən beynəlxalq standartlara cavab verir. Bununla belə, respublikada nağdsız ödənişlərin

həcminin artımı üçün müəyyən zamana da ehtiyac var: «Yeni texnologiyaların ictimai şüurda möhkəmlənməsi, təbii olaraq, müəyyən zaman tələb edir. Bir zamanlar məvaciblərin, pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə verilməsi praktikası müəyyən insanlarda narahatlıq, inamsızlıq yaradırdı. İndi bu, demək olar ki, hamı üçün adi prosedura çevrilib. POS-terminallardan istifadənin genişləndirilməsi, nağdsız ödənişlərin həcminin artması üçün də, görünür, müəyyən zamana ehtiyac var. Ümumilikdə isə bu proses iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində davamlı və qaçılmaz səciyyə daşıyır».

S.MUSTAFAYEV